**Qanun jurnalı, № 09 (323) 2021. Səh.68. ISSN 2218-9130**

# Sovet cinayət hüququnda toxunulmazlıq hüququ əleyhinə olan cinayətlərə yanaşma

**Əlizadə Nuridə Elton qızı,**
Azərbaycan Respublikası Ədliyyə Nazirliyi
Ədliyyə Akademiyasının baş məsləhətçisi,
Məhkəmə Ekspertizası Mərkəzinin dissertantı,
II dərəcəli ədliyyə qulluqçusu **UOT: 343.4**

***Açar sözlər:*** *toxunulmazlıq hüququ, Sovet cinayət hüququ, insan hüquqları, mənzil toxunulmazlığı, yazışma sirri,*
***Ключевые слова:*** *право на неприкосновенность, Советское уголовное право, права человека, неприкосновенность жилища, тайны переписки*
***Keywords:*** *right to immunity, Soviet criminal law, human rights, housing immunity, correspondence*

Azərbaycan Respublikasının Konstitusiyası beynəlxalq standartlara uyğun olaraq hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqlara və azadlıqlara malik olduğunu təsbit edir. Şəxsi hüquq və azadlıqlar içərisində toxunulmazlıq hüququ müasir dövrümüz üçün əhəmiyyətli hesab olunur.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 21-ci fəsli "İnsan və vətəndaşın konstitusiya hüquq və azadlıqları əleyhinə olan cinayətlər" adı altında verilmişdir. Burada toxunulmazlıq hüququnun pozulması ilə bağlı 3 maddə əks olunub. 155-ci maddədə nəzərdə tutulan "Yazışma, telefon danışıqları, poçt, teleqraf və digər məlumatların sirrini pozma" və 156-cı maddədə nəzərdə tutulan "Şəxsi həyatın toxunulmazlığını pozma" cinayətləri insan və vətəndaşın şəxsi toxunulmazlıq hüquqlarının pozulması əleyhinə olan cinayətlər hesab olunur. AR Cinayət Məcəlləsinin 157-ci maddəsində əks olunan "Mənzil toxunulmazlığını pozma" əməli isə mənzil toxunulmazlığı hüququ əleyhinə olan cinayətdir. Cinayət Məcəlləsinin sözügedən maddələri inkişaf yolu keçərək bir neçə dəfə dəyişikliyə məruz qalmışdır. Lakin qüvvədə olan Cinayət Məcəlləsindən əvvəl bu cinayətlərin necə tənzimləndiyini araşdırmaq lazımdır.

28 may 1918-ci ildə yaranan və 23 ay yaşayan Azərbaycan Demokratik Respublikası 1920-ci ilin aprel ayında Sovet Rusiyasının XI Qızıl Ordusunun Bakıya gəlişi ilə öz müstəqilliyini itirdi. Formal şəkildə müstəqil olan Azərbaycan bəzi dövlət atributlarını – Konstitusiya, bayraq, himn, gerbi saxlamaqla SSR-nin tərkibində bir Respublikaya çevrildi.

Sovet hakimiyyətinin ilk illərində şəxsi həyatın, yaşayış sahələrinin real və səmərəli təminatları yox idi və bu həm sahəvi qanunvericiliyə, həm də icra hakimiyyəti orqanlarının qərarlarına aid idi. Belə ki, o vaxt qüvvədə olan 1922-ci il RSFSR Cinayət Məcəlləsində şəxsi həyatın və mənzil toxunulmazlığının pozulmasına görə heç bir məsuliyyət müəyyən edilməmişdi. Həmçinin 1926-cı il RSFSR Cinayət Məcəlləsinin qüvvədə olduğu müddət ərzində, 1960-cı il yeni Cinayət Məcəlləsinin qəbul edilməsinə qədər, şəxsi həyatın pozulmasına görə məsuliyyət problemi sahəvi qanunvericilikdə öz həllini tapmamışdı. Yalnız kobud pozuntu halları şəxsin şərəf və ləyaqətinə qarşı törədilən cinayət kimi qiymətləndirilə bilərdi. 1960-cı il RSFSR Cinayət Məcəlləsi ilk dəfə sözügedən cinayətləri müstəqil cinayət kimi tanıdı: yazışma, telefon_danışıqlarının və teleqraf rabitəsinin sirrinin pozulmasına görə məsuliyyət nəzərdə tutan 135-ci maddə; mənzil toxunulmazlığının pozulmasına görə məsuliyyət nəzərdə tutan 136-cı maddə [9, m.135-136].

Sovet dövründə dövlətlərdə şəxsi həyatın toxunulmazlığı ideyaları populyar deyildi, çünki bir insanın toxunulmazlığını qorumaq üçün hazırlanmış cinayət hüquq normaları onilliklər boyu qanundan kənarda qalmışdır. Evlərdə ixtiyari, icazəsiz axtarışlar, vətəndaşların şəxsi həyatına qəsd etmək adi hala çevrilmişdi. Beləliklə, 1922 və 1926-cı illər RSFSR Cinayət Məcəllələrində yalnız birtərəfli

qaydada mənzil toxunulmazlığı hüququnu qoruyan normalar nəzərdə tutulmuşdu ki, bu normalar daha çox mənzildən istifadə hüququnun müdafiəsinə yönəldilmişdi.

Sovet dövründə Azərbaycanın ilk Cinayət qanunu Azərbaycan SSR Cəza Məcəlləsi adlanırdı. Onu da qeyd edək ki, bir sıra xarici dövlətlərdə indi də cinayət qanunu məhz "Cəza Məcəlləsi", yaxud "Cəza qanunu" adlanır. Bu məcəllə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 2-ci sessiyası tərəfindən 9 dekabr 1922-ci il tarixdə qəbul edilmişdi. Burada insan və vətəndaşın nə şəxsi, nə də mənzil toxunulmazlığı hüququnun pozulmasına dair cinayət nəzərdə tutulmamışdı.

Azərbaycan SSR-in ikinci Cəza Məcəlləsi 1927-ci il 3 dekabr tarixində Azərbaycan Mərkəzi İcraiyyə Komiteti və Xalq Komissarları Sovetinin Qərarı ilə qüvvəyə minmişdi. Nə 1922-ci il, nə də 1927-ci il Cəza Məcəlləsində insan və vətəndaşın toxunulmazlıq hüquqları əleyhinə olan cinayətlər təsbit olunmamışdı. Çünki həmin dövrdə insan hüquqları məsələsi arxa planda idi. Müasir dövrə nisbətən insanların hüquqları dövlət tərəfindən tanınmır və qorunmurdu. Belə ki, sovet dövründə Azərbaycan SSR-də 4 konstitusiya qəbul olunmuşdu və onlar demək olar ki SSRİ konstitusiyasını təkrarlayırdı. Azərbaycan SSR-in 1921-ci il 19 may Konstitusiyasında çox az sayda hüquqlardan bəhs edilirdi. Şəxsi toxunulmazlıq hüququ haqqında isə heç bir müddəa yox idi. Həmçinin 26 mart 1927-ci il tarixli SSR Konstitusiyasında da toxunulmazlıqla bağlı hüquqlardan söz edilmirdi [7, s.7].

Xüsusən ilkin dövrlərdə Əsas Qanunda insan və vətəndaşın şəxsi toxunulmazlıqla bağlı hüquqlarının olmaması RSFSR Birliyinin şəxsi həyata mənfi münasibətindən irəli gəlirdi.

Mənzil toxunulmazlığı və rabitə sirri ilk dəfə 1936-cı il SSRİ Konstitusiyasında təsbit edildi.

Əvvəlki konstitusiyalardan fərqli olaraq Az SSR-in 1937-ci il Konstitusiyasına "Vətəndaşların əsas hüquq və vəzifələri" adlı XI fəsil əlavə olunmuşdu. İlk dəfə olaraq, bu Konstitusiyada vətəndaş hüquqları formal da olsa təsbit olunmuşdu. Eyni zamanda toxunulmazlıq hüquqları öz əksini tapmışdı. Belə ki, 134-cü maddəyə əsasən Azərbaycan SSR vətəndaşlarına şəxsiyyətin toxunulmazlığı təmin edilir, 135-ci maddədə isə vətəndaşların mənzilinin toxunulmazlığı və yazışma sirrinin qanunla qorunduğu qeyd edilirdi [7, s.55].

1922-ci il RSFSR Cinayət Məcəlləsi qüvvəyə mindiyi gündən, 1960-cı ildə yeni Cinayət Məcəlləsinin qəbul edilməsinə qədər, şəxsi həyatın pozulmasına görə məsuliyyət problemi cinayət qanunvericiliyində həll edilməmişdi. 1960-cı il CM-nin qəbul edilməsi ilə Rusiyada şəxsi həyatın toxunulmazlığının pozulmasına görə məsuliyyətin hüquqi tənzimlənməsinə ənənəvi yanaşma bərpa edildi. Sonradan, şəxsi həyat hüquqi qorunma obyekti olaraq, 1977-ci il SSRİ Konstitusiyasında elan edildi.

60-cı illərdə digər ittifaq respublikalarında olduğu kimi, Azərbaycanın da hüquq sistemində ikinci məcəlləşdirmə aparıldı. Bu islahat nəticəsində yeni CM, CPM, MM, MPM və bəzi digər məcəllələr qəbul olundu və onlar demək olar ki, RSFSR-in müvafiq məcəllələrindən fərqlənmirdi. Bu məcəllələr bir sıra əlavə və dəyişikliklərlə müstəqil Azərbaycanda yeni məcəlləşdirilmiş aktlar qəbul olunana qədər qüvvədə olmuşdu.

Şəxsi həyatın toxunulmazlıq hüququnun qanuni şəkildə təmin edilməsinin tarixinə baxdıqda görürük ki, o, əvvəlcə, şəxsi mülkiyyətin pozulmasına və başqasının evinə girməyə qadağa kimi meydana gəlmişdir. Daha sonra qanunvericilik başqasının yazışmalarını açmağı qadağan etdi, sonra digər rabitə növləri pozuntularına qarşı qanuni təminatlar aldı: teleqraf rabitə, telefon danışıqları və s. Bunun ardınca, hər bir insanın və hər bir vətəndaşın, fərdi həyatının digər vacib sahələrinin toxunulmazlıq hüququnu təmin edən "tək qalma" hüququnun mövcudluğu fikri tədricən formalaşmağa başladı.

1960-cı il RSFSR Cinayət Məcəlləsində insanın toxunulmazlıq hüquqlarını qoruyan normalar meydana çıxdı: mənzil toxunulmazlığı, eləcə də yazışma və övladlığa götürmə sirrinin gizliliyi hüququ. RSFSR Cinayət Məcəlləsinin 135-ci maddəsində vətəndaşların yazışmalarının, telefon danışıqlarının və teleqraf məlumatlarının məxfiliyinin pozulması - altı ayadək müddətə islah işləri və ya minimum aylıq əmək haqqının bir misli qədər cərimə və ya ictimai məzəmmətlə cəzalandırılırdı. Eyni Məcəllənin 136-cı maddəsi olan "Vətəndaşların mənzilinin toxunulmazlığının pozulması" cinayətinə əsasən, qanunsuz axtarış, qanunsuz çıxarılma və ya mənzil toxunulmazlığını pozan digər qanunsuz hərəkətlər - bir ilədək müddətə azadlıqdan məhrum etmə və ya eyni müddətə islah işləri, ya

da minimum əmək haqqının bir misli qədər cərimə və ya vəzifədən azad edilmə ilə cəzalandırılırdı [9, m.135-136].

1960-cı il Azərbaycan SSR Cinayət Məcəlləsinin “Vətəndaşların siyasi və əmək hüquqları əleyhinə olan cinayətlər” adlı dördüncü fəslində iki maddə var idi ki, haqqında danışdığımız cinayətlərə həsr olunmuşdu və RSFSR Cinayət Məcəlləsində qeyd olunan maddələrlə oxşar idi. Belə ki, həmin Məcəllənin 132-ci maddəsi “vətəndaşların mənzil toxunulmazlığını pozma” cinayəti adlanırdı. Həmin maddənin ilkin redaksiyasında qeyd olunurdu: “qanunsuz olaraq axtarış aparma, qanunsuz olaraq evdən çıxartma – bir ilədək müddətə azadlıqdan məhrum etmə və ya eyni müddətə islah işləri və ya ictimai məzəmmətlə cəzalandırılır”. Bu cinayətin obyektiv cəhəti yalnız qanunsuz axtarış aparma və qanunsuz evdən çıxarmada ifadə olunurdu. Burada alternativ cəza kimi nəzərdə tutulan, həmin dövr cinayət qanunvericiliyində ən yüngül cəza sayılan, müasir dövrümüz üçün aktual olmayan ictimai məzəmmət – müttəhimin məhkəmə tərəfindən camaat qarşısında məzəmmət edilməsindən və lazımi hallarda bu barədə mətbuat vasitəsilə və ya sair üsulla ictimaiyyətin nəzərinə çatdırmaqdan ibarət idi [6, s.615]. 1995-ci il 12 sentyabr tarixli, 1101 №-li Qanunla maddə yeni redaksiyada verilmişdi. Dəyişiklikdən sonra maddənin mətni genişlənmiş və aşağıdakı formada nəzərdə tutulmuşdu: “qanuni əsası olmadan mənzildə yaşayan şəxsin iradəsi ziddinə mənzilə girmə - bir ilədək müddətə azadlıqdan məhrum etmə və ya iki ilədək müddətə islah işləri ilə cəzalandırılır. Eyni hərəkətlər gecə vaxtı və ya fiziki zor tətbiq etmə və ya zor tətbiq etməklə hədələmə yolu və ya bir dəstə şəxs tərəfindən törədilərsə - iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Eyni hərəkətlər qanunsuz axtarış aparma və ya mənzildən çıxartma ilə müşayiət edilərsə - üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır” [6, s.696]. Maddəyə edilən dəyişikliyə əsasən yalnız axtarış və evdən çıxarma deyil, mənzilə girmə qanunsuz və mənzil sahibinin iradəsi ziddinə olardısa, cinayət məsuliyyəti yaradırdı. Maddənin ilkin redaksiyasında tövsifedici əlamətlər nəzərdə tutulmamış, yalnız 1995-ci ildə əlavə olunmuşdu.

Həmin Məcəllənin “Yazışma sirrini pozma” adlı 133-cü maddəsinin ilkin mətnində deyilirdi: “vətəndaşların yazışma sirrini pozma – altı ayadək müddətə islah işləri və ya əlli manatadək cərimə ilə və ya ictimai məzəmmətlə cəzalandırılırdı” [3, m.133]. 1982-ci il 22 dekabr tarixli fərmanla maddə yeni redaksiyada verilmişdi. Orada deyilirdi: “vətəndaşların yazışmasının, telefon danışıqlarının və teleqraf məlumatlarının sirrini pozma – altı ayadək müddətə islah işləri və ya yüz manatadək cərimə ilə və ya ictimai məzəmmətlə cəzalandırılır”. Göründüyü kimi, əvvəlcə vətəndaşın yalnız yazışma sirri müdafiə altına alınırdısa, əlavədən sonra telefon danışığı və teleqraf məlumatları da bu cinayətin obyekti sırasına daxil edilmişdi. 1992-ci il 18 avqust tarixli, 274 №-li Qanunla “yüz manatadək” sözləri “minimum əmək haqqı miqdarının bir mislinədək” sözləri ilə, 1995-ci il 12 sentyabr tarixli, 1101 №-li qanunla isə “minimum əmək haqqı miqdarının bir mislinədək” sözləri “minimum əmək haqqı məbləğinin altmış mislindən yetmiş mislinədək miqdarda cərimə” sözləri ilə əvəz olunmuşdu [6, s.697].

1978-ci il aprelin 21-də Respublika Ali Sovetinin növbədənkənar yeddinci sessiyasında Azərbaycanın sayca dördüncü Konstitusiyası qəbul edildi. İlk dəfə olaraq, Əsas Qanunda hüquq və vəzifələrin «qırılmaz əlaqəsi» qeyd edildi. Orada qeyd olunurdu ki, Azərbaycan SSR vətəndaşları SSRİ Konstitusiyasında, Azərbaycan SSR Konstitusiyasında və sovet qanunlarında elan edilən və təminat verilən sosial-iqtisadi, siyasi və şəxsi hüquq və azadlıqlara bütünlüklə malikdirlər. Həmin Konstitusiyanın 53-cü maddəsinə əsasən, Azərbaycan SSR vətəndaşlarına mənzil toxunulmazlığı üçün təminat verilirdi. Qanuni əsas olmadan heç kəsin mənzildə yaşayan şəxslərin iradəsi ziddinə mənzilə daxil olmaq ixtiyarı yox idi. Maddə 54-də isə vətəndaşların şəxsi həyatının, yazışmalarının, telefon danışıqlarının və teleqraf rabitəsinin sirrinin qanunla qorunduğu qeyd olunurdu [7, s.66]. Göründüyü kimi, dövlətin Əsas Qanununda insanın şəxsi, yazışma və mənzil toxunulmazlığı hüququnun təsbiti cinayət qanunveiciliyinə də öz təsirini göstərmişdi.

1991-ci il Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya aktına əsasən Azərbaycan Respublikası vətəndaşlarının həyatına, sağlamlığına, şəxsi azadlığına və təhlükəsizliyinə edilən qəsdlərdən onların müdafiəsini təmin etməlidir [7, s.89]. Fikrimizcə, burada şəxsi azadlıq dedikdə, həm də şəxsi toxunulmazlıq nəzərdə tutulurdu.

Beləliklə, sovet dövrünün cinayət qanunların təhlili ilk Sovet Cinayət Məcəllələrində (1922 və 1927) insanın şəxsi həyatının toxunulmazlığına qarşı cinayətlərə dair normaların olmadığına dair nəticə çıxarmağa imkan verir.

MDB üzv dövlətlərinin Parlamentlərarası Assambleyasının qərarı ilə 17 fevral 1996-cı ildə Sankt-Peterburq şəhərində qəbul edilmiş "Müstəqil Dövlətlər Birliyinin üzv dövlətləri üçün Model Cinayət Məcəlləsi" tövsiyyəedici qanunvericilik aktı olsa da 2000-ci il AR Cinayət Məcəlləsi onun əsasında qəbul edilmişdir. Həmin Model Məcəllənin 21-ci fəsli müasir Cinayət Məcəlləsində olduğu kimi "İnsan və vətəndaşın konstitusiya hüquq və azadlıqları əleyhinə olan cinayətlər" başlığı altında verilib. Sözügedən fəslin 151-ci maddəsi şəxsi həyat haqqında məlumatların qanunsuz toplanması və yayılması adlanır. Orada qeyd olunur ki, başqa şəxsin şəxsi və ya ailə sirrini təşkil edən şəxsi həyat haqqında məlumatları yaymaq məqsədilə həmin şəxsin razılığı olmadan qanunsuz toplama, yaxud belə məlumatların kütləvi çıxışda, kütləvi nümayiş etdirilən əsərdə və ya kütləvi informasiya vasitələrində yayma, zərərçəkmiş şəxsin hüquqlarına və qanuni maraqlarına zərər vurulmasına səbəb olduqda – az ağır cinayətdir. 153-cü maddəyə əsasən yazışma, telefon danışıqları, poçt, teleqraf və ya digər məlumatların sirrini pozma – az ağır cinayətdir. Qulluq mövqeyindən istifadə etməklə törədilmiş eyni əməl – az ağır cinayət sayılır. Mənzil toxunulmazlığını pozma cinayətini nəzərdə tutan 154-cü maddəyə görə, mənzildə yaşayan şəxsin iradəsi əleyhinə mənzilə qanunsuz daxil olma – az ağır cinayət, eyni əməllər zor tətbiq etməklə və ya zor tətbiq etmə hədəsi və qulluq mövqeyindən istifadə etməklə törədilərsə orta ağır cinayətdir [6, s.1140-1141].

AR-ın qüvvədə olan Cinayət Məcəlləsi beynəlxalq hüququn təsiri altında ümumbəşəri prinsiplərə və ideyalara söykənir. Burada insan hüquqları sahəsindəki standartlar və AR Konstitusiyasına uyğun olaraq, şəxsi həyata xələl gətirən cinayətlərin dairəsi genişlənmişdir. Obyekti AR Konstitusiyasının 32-ci maddəsinin IV bəndində nəzərdə tutulan konstitusion hüququn həyata keçirilməsilə əlaqədar yaranan ictimai münasibətlər olan cinayəti nəzərdə tutan 155-ci maddəyə əsasən yazışma, telefon danışıqları, poçt, teleqraf və digər məlumatların sirrini pozma — min manatdan iki min manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri ilə cəzalandırılır [4, m.155].

AR-ın CM-nin 156-cı maddədə şəxsi və ailə həyatının sirri olan məlumatların, belə məlumatları əks etdirən sənədlərin, video və foto çəkilişi materiallarının, səs yazılarının yayılması, habelə satılması və ya başqasına verilməsi qanunsuz toplanılması - min manatdan iki min manatadək miqdarda cərimə və ya iki yüz qırx saatdan dörd yüz səksən saatadək ictimai işlər və ya bir ilədək müddətə islah işləri ilə cəzalandırılır. Bu maddədə nəzərdə tutulan cinayətin obyekti AR Konstitusiyasının 32-ci maddəsində nəzərdə tutulmuş şəxsi toxunulmazlıq hüququdur. Bu cinayətin vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə və məsafədən idarə edilən pilotsuz uçan aparatlardan istifadə etməklə törədilməsi tövsifedici əlaməti kimi nəzərdə tutulmuşdur [4, m.156].

Mənzil toxunulmazlığını pozma cinayətini nəzərdə tutan Cinayət Məcəlləsinin 157-ci maddəsinin obyekti AR Konstitusiyasının 33-cü maddəsilə müəyyən edilmiş mənzil toxunulmazlığı hüququdur. Maddəyə əsasən, Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş əsaslar olmadan, mənzildə yaşayanın iradəsi ziddinə mənzilə daxil olma — min manatdan iki min manatadək miqdarda cərimə və ya iki yüz qırx saatdan dörd yüz səksən saatadək ictimai işlər və ya bir ilədək müddətə islah işləri ilə cəzalandırılır. Eyni əməllər zor tətbiq etməklə və ya zor tətbiq etmə hədəsi ilə törədildikdə, həmçinin vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə ağırlaşdırıcı hallarda cinayət məsuliyyətinə səbəb olur [4, m.157].

İstər Az SSR Cinayət Məcəllələrində, istərsə də qüvvədə olan Cinayət Məcəlləsində haqqında bəhs edilən cinayətlər birbaşa qəsdlə törədilir.

Beləliklə, Azərbaycanda müxtəlif dövrlərdə qüvvədə olan cinayət qanunlarında toxunulmazlıq hüququ əleyhinə olan əməllər həmişə cinayət kimi xarakterizə edilməmişdir, çünki sovet hakimiyyətinin ilk illərində gizlilik, yaşayış sahələrinin toxunulmazlığının real və faktiki təminatları praktiki olaraq mövcud deyildi. 1922 və 1927-ci il Cinayət Məcəllələrindən fərqli olaraq, sonrakı məcəllələrdə şəxsi toxunulmazlıq, yazışma, telefon danışıqları, poçt, teleqraf və digər məlumatların toxunulmazlığı, o cümlədən, mənzil toxunulmazlığı hüququnun pozulması cinayəti müstəqil norma kimi nəzərdə tutulmuşdur. Qüvvədə olan AR cinayət qanunvericiliyi hər bir insanın şəxsi həyatının toxunulmazlığını, şəxsi və ailə sirlərini müdafiə edir. Fikrimizcə, AR CM-in 155-157-ci maddələrində

nəzərdə tutulan toxunulmazlıq hüquqları əleyhinə olan cinayətlərin tərkibi ictimai münasibətləri daha mükəmməl formada tənzimləyir.

**İstifadə edilmiş mənbələr:**


1. Azərbaycan Respublikasının Konstitusiyası. Hüquq yayın evi. Bakı-2018, 92 s.
2. Azərbaycan SSR 1927-ci il Cinayət Məcəlləsi (1944-cü il fevralın 1-nə qədər olan əlavə və dəyişikliklərlə). Bakı: Azərnəşr, 1945, 220 s.
3. Azərbaycan SSR 1960-cı il Cinayət Məcəlləsi (1998-ci il oktyabrın 1-nə qədər olan əlavə və dəyişikliklərlə). Bakı: Hüquq ədəbiyyatı, 1998, 192 s.
4. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi - http://www.e-qanun.az/code/11
5. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin Kommentariyası/ F.Y.Səməndərovun ümumi redaktəsi ilə. Bakı: Digesta, 2008, 1006 s.
6. Cinayət qanunları külliyyatı. Hüquq yayın evi. Bakı-2014, 1184 s.
7. Konstitusiya. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin PREZİDENT KİTABXANASI. http://files.preslib.az/projects/remz/pdf/atr_kons.pdf
8. Комментарий к УК Российской Федераций / Под общ. ред. А.А.Чекалина. М.: Юрайт, 2006, 1228 ст.
9. "Уголовный кодекс РСФСР" (утв. ВС РСФСР 27.10.1960) (ред. от 30.07.1996) http://www.consultant.ru/cons/cgi/online.cgi?req=doc&base=LAW&n=8627&fld=134&dst=100603,0&rnd=0.5282379940461257#016477317007045467
10. "Уголовный кодекс Российской Федерации" от 13.06.1996 N 63-ФЗ (ред. От 27.12.2019)http://www.consultant.ru/cons/cgi/online.cgi?req=doc&base=LAW&n=341913&fld=134&dst=100774,0&rnd=0.7301477670333318#017560192910391148

**Əlizadə Nuridə Elton qızı**

## Sovet cinayət hüququnda toxunulmazlıq hüququ əleyhinə olan cinayətlərə tarixi yanaşma

### Xülasə

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 21-ci fəsli "İnsan və vətəndaşın konstitusiya hüquq və azadlıqları əleyhinə olan cinayətlər" adı altında verilmişdir. Burada toxunulmazlıq hüququnun pozulması ilə bağlı 3 maddə əks olunub. Lakin qüvvədə olan Cinayət Məcəlləsindən əvvəl bu cinayətlərin necə tənzimləndiyini araşdırmaq lazımdır. Məqalədə RSFSR və Azərbaycan SSR Cinayət Məcəllələrində şəxsi toxunulmazlıq və mənzil toxunulmazlığı hüquqları əleyhinə olan cinayətlərin təsbiti, Sovet cinayət hüququnda şəxsi toxunulmazlıq hüququ ilə bağlı pozuntulara görə cinayət məsuliyyəti haqqında qanunvericiliyin inkişafının tarixi və müqayisəli aspektləri araşdırılır.

**Ализаде Нурида Элтон гызы**

## Исторический подход к преступлениям против права на неприкосновенность в советском уголовном праве

### Резюме

Глава 21 Уголовного кодекса Азербайджанской Республики именуется «Преступления против конституционных прав и свобод человека и гражданина». В данной главе предусмотрены три преступления, связанные с нарушением права на неприкосновенность. Вместе с тем, история развития данных преступлений также представляет научный интерес. В статье рассмотрены вопросы регулирование преступлений против личной неприкосновенности и неприкосновенности жилища в Уголовных кодексах РСФСР и Азербайджанской ССР, соответствующие статьи уголовных законов были сравнены и проанализированы в ретроспективном контексте.

**Alizade Nurida Elton**

## Historical approach to crimes against the right to immunity in accordance with Soviet criminal law

### Summary

Chapter 21 of the Criminal Code of the Republic of Azerbaijan is entitled "Crimes against the constitutional rights and freedoms of human being". Here are three articles related to the violation of the right to immunity. However, it is necessary to investigate how these crimes are regulated prior to the current Criminal Code. The article investigates the crimes against personal immunity and immunity of housing according to Criminal Code of RSFSR and the Azerbaijan SSR as well as the historical and comparative aspects of legislation on criminal liability for violations of personal immunity in accordance with the Soviet Criminal Law.